**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN MİLLİ İSTİQLAL MÜBARİZƏSİ VƏ GÜLTƏKİN POEZİYASI

İxtisas: 5716.01 - Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

İddiaçı: **Ülviyyə Kərəm qızı Əhmədova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Xəzər Universitetinin Dillər və ədəbiyyatlar departamentində yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | filologiya elmləri doktoru, professor<br>**Bədirxan Balaca oğlu Əhmədov** |
| Rəsmi opponentlər: | filologiya elmləri doktoru, professor<br>**Yaqub Məhərrəm oğlu Babayev** |
| | filologiya elmləri doktoru, professor<br>**Rafiq Manaf oğlu Novruzov** |
| | filologiya üzrə fəlsəfə doktoru<br>**Nuranə Firudin qızı Əsədullayeva** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi nəzdində fəaliyyət göstərən ED 1.31 – Dissertasiya şurası.

| | |
|---|---|
| Dissertasiya şurasının sədri:<br>_______________ | AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor<br>**Rafael Baba oğlu Hüseynov** |
| Dissertasiya şurasının elmi katibi:<br>_______________ | filologiya üzrə fəlsəfə doktoru<br>**İlhamə Mürsəl qızı Gültekin** |
| Elmi seminarın sədri:<br>_______________ | filologiya elmləri doktoru, professor<br>**Cəlil Qərib oğlu Nağıyev** |

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Çağdaş ədəbiyyatşünaslığın əsas vəzifələrindən biri indiyədək elmi dövriyyəyə daxil edilməyən bədii mətnləri üzə çıxarmaq, onları yeni-müstəqillik kontekstindən dəyərləndirmək və təhlil etməkdir. Aparılan araşdırmalar göstərir ki, XX əsrin əvvəllərində ədəbiyyatın əsas mövzularından biri olan azadlıq, hürriyyət, istiqlal mövzuları öz qaynağını daha əvvəllərdən alır. Hələ XIX əsrdə Əbdürrəhman ağa Dilbazoğlu, Gəncəli Həsən, Mustafa ağa Arif, Şəkili müəzzin Turabi, Hatəmi, Şikəstəxatir, Seyid Həmzə Nigari və başqalarının yaradıcılığında milli mübarizənin izləri görünür. XX əsrin əvvəllərində istiqlal, azadlıq düşüncəsi təkcə poeziyada deyil, ədəbiyyatın digər forma və janrlarında da əks olunur. Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Məhəmməd Hadi, Əliabbas Müznib, Məmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov, Əbdülxalıq Cənnəti və digərlərinin əsərlərində milli istiqlal düşüncəsi formalaşdırılırdı. Cümhuriyyət dövründə isə Abdulla Şaiq, Əhməd Cavad, Əmin Abid, Əliyusif, Umgülsüm, Davudun şeirlərində, Seyid Hüseynin nəsr və publisistikasında istiqlal mövzusuna geniş yer verilir. Bolşeviklərin hakimiyyəti ələ alması, XI Qızıl ordunun işğalı ilə bu mövzu geriyə çəkilir. Vətəndə yaranan milli ruhlu şeirlər mətbuata yola tapa bilmədiyindən daha çox mühacirətə yönəlir.

M.Ə.Rəsulzadənin 1922-ci ildə Türkiyəyə mühacirət etməsi və istiqlal savaşını davam etdirməsi, siyasi mühacirlərin orqanı kimi "Yeni Kafkasya" (1923) dərgisini nəşr etməsi ilə vətəndən kənarda siyasi müstəqillik mübarizəsinin əsası qoyulur. Bu zaman Türkiyədə təhsil alan, eyni zamanda Azərbaycan Xalq Maarif Komissarlığının tapşırığı ilə "Azərbaycan türklərinin ədəbiyyatı tarixi" çoxcildlik əsərini yazan Əmin Abid "Gültəkin" imzası ilə milli mücadilə şeirlərini yazır. İşğalla barışmayan Gültəkin siyasi platformadan çıxış edərək ictimai lirikalı istiqlal poeziyasını yaradır. Gültəkinin poeziyası nəinki gənclərə, eləcə də Azərbaycanın siyasi müstəqilliyi üçün mübarizə aparan mühacirlərə belə təsir göstərirdi. M.Ə.Rəsulzadə,

M.B.Məmmədzadə, Ə.Cəfəroğlu dəfələrlə onun poeziyasına müraciət etmiş və şeirlərini poetik örnək kimi qeyd etmişlər. Gültəkin şeirlərinə nəğmələr qoşularaq İstanbul caddələrində oxunması da bu şeirlərin yayılma arealı və təsirini aydın şəkildə ifadə edir. Gültəkinin poeziyası Türkiyədə mühacirətdə yazıb yaradan şairlərə də təsir göstərmiş, bir çox şairlər ona şeirlər həsr edərək təsvir etdiyi milli istiqlal düşüncəsini təqdir etmişlər. Gültəkinin 1923-cü ildə "Yeni Kafkasya"da 21 şeiri yayımlanmışdır. Gültəkin şeirləri məzmun və mündəricəsinə, siyasi, ictimai kəskinliyinə görə də digər şeirlərdən fərqlənirdi. Yəni Gültəkinin şeirləri Azərbaycan mühacirləri üçün daim mənəvi enerji mənbəyi olmuşdur. Buna görə də 1948-ci ildə mühacirlər onun İstanbulda "Buzlu cəhənnəm" kitabını nəşr etmişdir. Bu isə o demək idi ki, Gültəkin şeirləri Azərbaycan mühacirlərinin apardığı siyasi mübarizənin mənəvi, poetik qaynağıdır. Bütün bunlar onu göstərir ki, Gültəkin poeziyası milli istiqlal poeziyasının ən yaxşı örnəkləri olmaqla, ictimai, siyasi, bədii fikrə böyük təsir göstərmişdir. Mövzunun aktuallığı onunla şərtlənir ki, uzun müddət kölgədə qalmış milli istiqlal poeziyası qaynaqları və örnəkləri ilə Gültəkin yaradıcılığı kontekstində tədqiq olunur.

Mövzunun araşdırılmasına gəldikdə deməliyik ki, mühacirətdə M.Ə.Rəsulzadə, Ə.Cəfəroğlu, M.B.Məmmədzadə kimi fikir adamları Gültəkin poeziyası haqqında müəyyən fikirlər söyləmişlər. Azərbaycanda isə tədqiqatçı Əli Şamil hələ 80-ci illərdən Əmin Abidin "Azərbaycan türklərinin ədəbiyyatı tarixi" əsəri və bütövlükdə onun yaradıcılığı ilə maraqlanmış, bir çox tədqiqatlar aparmışdır. Ə.Şamil həm də Gültəkinin Əmin Abid olduğunu faktlarla ortaya çıxaran tədqiqatçılardandır[1]. Professor Bədirxan Əhmədli də Ə.Abid yaradıcılığını tədqiq etmiş, "Seçilmiş əsərləri"ni və ədəbiyyat tarixlərini (Ə.Şamillə birgə)

---

[1] Şamil, Ə. Gültəkin imzasının Əmin Abidə məxsus olduğunu təsdiqləyən yeni sənədlər // – Bakı: Ədəbi nəzəri məcmuə, – 2003. № 1, – s. 199-207; Şamil, Ə. Üzağlığı doğuran misralar ve ya "Gültekin" kimdir // – Bakı: Buzlu cəhənnəm və digər şeirləri, – 1999, – s. 8-22.

çapa hazırlamış, bir neçə məqalə və monoqrafiya çap etdirmişdir.[2] Onun "Bir istiqlal yolçusu" monoqrafiyasında Ə.Abidin poeziyası da bir bölmədə tədqiq edilmişdir. Bütövlükdə, XIX əsrdən başlayan milli istiqlal düşüncəsinin poeziyada əks olunması və Gültəkin yaradıcılığında istiqlal lirikası geniş şəkildə araşdırılmamışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat işinin obyektini Azərbaycan poeziyasında XIX əsrdən başlayan mübarizə, istiqlalçılıq, azadlıq və hürriyyətə aid poetik mətnlər təşkil edir. Gültəkin lirikası və mücadilə ədəbiyyatının formalaşmasında rol oynayan ədəbi, siyasi, tarixi şəxsiyyətlərin poetik, elmi yaradıcılığı, onun mahiyyəti dissertasiyanın əsas predmetidir. Dissertasiyada XX əsr istiqlal poeziyasının nümayəndələrinin poetik yaradıcılığına da müraciət edilir. Mövzu ilə bağlı mövcud məqalələr, monoqrafiyalar, yeri gəldikcə, mətbuat orqanları, habelə arxiv materialları, poetik nümunələrin təhlili əsasında ictimai-siyasi mühitin xarakterinin təsviri, dövrün özünəməxsusluğunun analiz edilməsi, azadlıq, vətənpərvərlik, istiqlal lirikasının, yaradıcı pafosun yönəldiyi mənəvi-elmi istiqamətlər sistemli şəkildə tədqiqatın predmetinə daxil edilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin qarşısında aşağıdakı vəzifələr qoyulmuşdur:

– Azərbaycan istiqlal poeziyasının ortaya çıxması və formalaşmasının qaynaqlarını təhlil etmək;

– İstiqlal və mücadilə ədəbiyyatının yeni çalarlarını, poetik xarakterini müəyyən etmək;

–XIX və XX əsr  azadlıq və istiqlal konsepsiyasını, dövrün aparıcı şəxsiyyətlərin vətəndaşlıq mövqeyini ortaya çıxarmaq;

---

[2] Əhmədov, B. Bir istiqlal yolçusu: Əmin Abid - həyatı, mühiti, yaradıcılığı /  B. Əhmədov. – Bakı: Elm, – 2003. – 205 s.; Əhmədov, B.  Azərbaycan mühacirət ədəbiyyatı: təşəkkülü, problemləri, şəxsiyyətləri / B.Əhmədov. – Bakı: Elm və Təhsil, –2017. – 376 s.; Abid, Ə. Azərbaycan türklərinin ədəbiyyatı tarixi / Ə.Abid, tərt ed. B.Əhmədov, Ə.Şamil. – Bakı: Elm və təhsil, – 2016. – 240 s.; Abid, Ə. Azəri ədəbiyyatı tarixi / Ə. Abid, tərt. ed. B. Əhmədov, Ə. Hüseynoğlu. – Bakı: Elm və Təhsil, – 2020. – 303 s.

– İşğala qarşı mübarizədə milli birlik ideyasının motivlərini müəyyən etmək;

– İstiqlal mübarizəsində özünəməxsus rolu olan Gültəkinin formalaşmasında mühitin rolunu təhlil etmək;

– Əmin Abidiin "Gültəkin" imzası ilə yazdığı şeirləri mövzu, ideya baxımından təhlilə cəlb etmək və siyasi mühacirlərə təsir imkanlarını üzə çıxarmaq.

**Tədqiqat metodları.** Dissertasiyada Azərbaycan poeziyasının istiqlal ədəbiyyatı şairlərinin, həmçinin Gültəkinin azadlıq ideyasını özündə ehtiva edən şeir yaradıcılığı tədqiq edilmiş, onların əsasında aparılmış araşdırmalara istinad olunmuş, elmi-təsviri və tarixi-bədii, tipoloji-müqayisəli təhlil metodundan istifadə edilmişdir. Dissertasiyada ilk növbədə poeziyada mücadilə hərəkatı üzərində araşdırmalar aparmış müəlliflərin, görkəmli alimlərin əsərlərinə müraciət edilmiş, onların təhlil və elmi-nəzəri üsullarına istinad olunaraq münasibət bildirilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Müdafiəyə aşağıdakı əsas müddəalar çıxarılmışdır:

– Azərbaycan ədəbiyyatında milli mücadilə motivlərinin, istiqlal mübarizəsinin mənbə və qaynaqları;

– XIX əsrdə tarixi şəraitdən, ictimai təzyiq və işğaldan irəli gələn mücadilə ədəbiyyatı (Ə.Dilbazoğlu, M.Arif, H.Gəncəli, M.B.Nadim, T.Şəkili, H.Şəkili, Şikəsxatir, S.H.Nigari və b.);

– XX əsrin əvvəllərində hürriyyət, azadlıq motivlərinin Cümhuriyyətə gedən yolda istiqlal ideyasını formalaşdırması (Ə.Hüseynzadə, S.Hüseyn, M.Hadi, Ə.Müznib, Umgülsüm, Ə.Cavad, Ə.Abid, C.Cabbarlı, Əliyusif, A.Şaiq, A.Səhhət və b.);

– Əmin Abidin mühiti və ilkin dövr yaradıcılığında onu istiqlal düşüncəsinə, milli ruhun təsvirinə, türkçülüyə, turançılığa gətirən amillər;

– Əmin Abidin Türkiyədə "Gültəkin" imzası ilə çıxış etməsi və poeziyada yeni bir istiqamətin-siyasi-ictimai mücadilə poeziyasının əsasını qoyması;

– Gültəkinin poeziyasında milli ruhun, vətən, yurd, ana obrazlarının yaradılması və istiqlal ideyasının poetik dərki;

– Gültəkin poeziyasında rus işğalına qarşı mübarizənin

poetik ifadə imkanları.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyada poeziyada istiqlal konteksti tədqiq edilərək aşağıdakı elmi yeniliklərə nail olunmuşdur:

– XIX əsrdə bədii və ictimai düşüncədə milli mücadilənin formalaşması fikri ortaya çıxarılmışdır;

– XX əsrin əvvəllərində bədii və ictimai fikirdə ənənəvi bədii təsvir və tərənnümdən fərqli vətən, istiqlal, azadlıq, hürriyyət kimi mövzular araşdırılaraq milli məfkurənin formalaşmasındakı rolu üzə müəyyən edilmişdir;

– Gültəkin poeziyası ilk dəfə milli istiqlal poeziyası kontekstində tədqiq edilmişdir;

– Gültəkinin indiyədək heç yerdə tədqiqata cəlb edilməyən "Türkün dərdi" adlı ikinci şeiri (bu adda onun iki şeiri vardır) üzə çıxarılmış və elmi dövriyyəyə təqdim edilmişdir.

Elmi işin yeniliyi, həmçinin, problemin qoyuluşu və işlənmə tərzindədir. İlk dəfə olaraq Azərbaycan poeziyasında milli istiqlal problemi və Gültəkin poeziyası sistemli şəkildə tədqiq edilir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işi bəhs edilən şairlərin və Əmin Abid-Gültəkinin yaradıcılığı üzrə ədəbiyyatşünaslıq sahəsində aparılan elmi-nəzəri təfəkkürün zənginləşməsi prosesini tamamlayır. Tədqiqatın nəticələri humanitar elmlərlə məşğul olan alimlər, orta məktəb müəllimləri, filologiya fakültəsinin tələbələri və ümumiyyətlə, bütün oxucu kütləsi və vətəndaşlar üçün maraq kəsb edir. Tədqiqat işindən, eyni zamanda Cümhuriyyət və mühacirət ədəbiyyatı kontekstində araşdırma aparan tədqiqatçılar da yararlana bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Tədqiqat işi Azərbaycan Respublikası Təhsil Nazirliyi Xəzər Universitetinin Dillər və ədəbiyyatlar departamentində yerinə yetirilmişdir. Mövzu ilə bağlı tədqiqatın əsas məzmununu əhatə edən məqalələr ölkədə və xaricdə nüfuzlu jurnallarda dərc edilmiş, beynəlxalq və respublika elmi konfransında məruzələr edilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Tədqiqat işi Azərbaycan Respublikasının Prezidenti yanında Ali

Attestasiya Komissiyası tərəfindən qoyulan tələblərə uyğun qaydada yazılmışdır. Dissertasiya giriş (13.511 şərti işarə), hər biri iki paraqraf olmaqla üç fəsil (birinci fəsil - 76.107 şərti işarə, ikinci fəsil - 76.575 şərti işarə, üçüncü fəsil - 61624 şərti işarə), nəticə (9358 şərti işarə) və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın ümumi həcmi 237.175 şərtı işarədir.

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı, məqsəd və vəzifələri, nəzəri və praktik əhəmiyyəti, müdafiəyə çıxarılan əsas müddəalar, nəzəri və elmi yeniliyi kimi məsələlər müəyyən olunmuşdur.

**"Azərbaycan poeziyasında milli mübarizənin qaynaqları"** adlı I fəsil iki paraqrafdan ibarətdir. **"XIX əsr Azərbaycan poeziyasında milli mübarizə düşüncəsinin formalaşması"** adlı ilk paraqrafda Rusiyanın Azərbaycanı işğal etməsi ilə yaranan mücadilə ədəbiyyatı araşdırılır. Qeyd olunur ki, mövcud vəziyyət Azərbaycanda siyasi mücadilənin və mübarizə düşüncəsinin əsasını qoydu, bəzi hallarda sürgün və mühacirətlə nəticələndi. Cavad xanın ölümü, Gəncə şəhərinin darmadağın edilməsi, xanlıqlarda çar Rusiyası tərəfindən aparılan idarəetmə siyasəti, müridizmə qarşı sözün həqiqi mənasında müharibə cəbhəsi açılması getdikcə ədəbi nümunələrdə də öz inikasını tapmağa başladı. Azərbaycan ədəbiyyatında milli istiqlal mübarizəsinin XIX əsrdə formalaşmasını əsaslandıran Ə.Cəfəroğlu istiqlal duyğusunu aşağıdakı şəkildə təsnif edir: "1. *Cavad xanın mücadiləsi ilə bağlı dastanlar və şeirlər; 2. Şimali Qafqazın müdafiəçisi Şeyx Şamil haqqında şeirlər; 3. Qaçaq dastanları və aşıq ədəbiyyatında rus istilasının əksi; 4. Azərbaycan vətənpərvər şeir məktəbi və milli cərəyan; 5. Son mühacirət dövrünün istiqlal şeirləri*"[3].

Bu dövrdə yaranan mübarizə ədəbiyyatı uzun müddət bizə

[3] Cəfəroğlu, Ə. Seçilmiş əsərləri / Ə.Cəfəroğlu. – Bakı: Mütərcim, – 2008. – s. 97.

ağızdan-ağıza gəlib çatmışdır. Dövrün hadisələrini qələmə alan Əbdürrəhman ağa Dilbazoğlu, Mustafa ağa Arif, Gəncəli Həsənin şeirlərində yerli əhalinin başına gələn hadisələr, xalqın Gəncəni təslim etməmək üçün apardığı mücadilə təsvir edilir. Bu şeirlərin bir çoxunda Cavad xanın işğalçılara qarşı apardığı mücadilə əks olunurdu. Ədəbiyyatşünas S.Mümtaz Cavad xanın çar Rusiyasına qarşı dirənişini *"Bu müxtəsər keçdiyim halinənin haqqında da o vaxtın bədbəxt şairləri həzin-həzin-həzin mərsiyələr söyləmişlər"*, -deyə qeyd edirdi[4].

"Şair" təxəllüslü Ə.Dilbazoğlunun Cavad xanla yaxınlığı bəhanə edilərək gürcü çarı II İrakli tərəfindən gözləri çıxarılır. Ə.Dilbazoğlunun üsyankar ruhlu "Ağlaram" (digər adı ilə "Ey qazilər, Vətənimdə qəribəm") çoxbəndli dördlüyü, "Bir rəvayət söylə, ey dil çərxi-kəcrəftardan" müxəmməsi XIX əsr istiqlal və mübarizə poeziyasının ilk örnəklərindəndir. Azərbaycan xalqında rus isğalına qarşı ilk mübarizə toxumlarının cücərdiyi mürəkkəb ictimai-siyasi zamanın təsvirini şeir boyu görmək mümkündür. F.Köçərli "Ağlaram" şeirində şairin vətənində qərib olmasının ağırlığını dilə gətirir və "itirmişəm ağır ellər",- deyə ayrı düşdüyü yurdu üçün həsrət çəkir:

*Mən qəribəm vətənimdə, qazilər,*
*İtirmişəm ağır ellər, ağlaram.*
*Könül həsrət qaldı, can intizarda,*
*Gözlərəm sübhü-şam, ağlaram*[5]

Ə.Dilbazoğlunun müasiri Mustafa ağa Arifin eyniadlı "Ağlaram" şeirində də Azərbaycandakı mövcud vəziyyətin necə acınacaqlı olduğunu görmək mümkündür. Ad və mövzu bənzərliyi olsa da, iki şeiri bir-birindən əsaslı şəkildə fərqləndirən cəhətlər var. Bunlar: gözləri oyulmuş şair Dilbazoğlunun tamamilə ümidsiz vəziyyəti, M.Arifin ömürlük sürgün həyatından doğan kədər və

[4] Mümtaz, S. Azərbaycan ədəbiyyatının qaynaqları / S.Mümtaz. – Bakı: Yazıçı, 1986. – s. 196.

[5] Köçərli, F. Azərbaycan ədəbiyyatı: [2 cilddə] / F.Köçərli. – Bakı: Avrasiya press, –c. 2. – 2005. – s. 230.

tükənməyən ümidinin ön planda olmasıdır. Sürgün həyatı yaşayan şairi F.Köçərli: "*Fars, türk və hətta rus dilini yaxş bilirmiş, özü də ziyadə dindar, qeyrətkeş, həqiqətdə arif şəxs imiş. Vəli bu biçarə dəxi öz qeyrət və millətpərəstliyi ucundan çox bəlalar və müsibətlər düçar olubdur*"[6] - deyə xarakterizə edirdi.

Cavad xanın və Gəncə əhalisinin başına gələn fəlakətlərdən Gəncəli Həsənin "Gəncə qırğını" adlı şeirində bəhs edilir. Burada müsəlmanlar üçün əhəmiyyətli gün sayılan Ramazan bayramı günü böyük, kiçik, yaşlı, cavan demədən, kimliyindən asılı olmadan ruslar tərəfindən hər kəsin qılıncdan keçirilməsi, gözəl şəhərin viranə, xaraba hala salınması sadə dillə ifadə edilir: "*Gəncəli Həsənəm, ürəyim acı / Maskov fürsət tapıb, çaldı qılıncı, / Şəmsəddil, Qazax, Borçalı, gürcü. / Taladı qalmadı malı Gəncənin!"*[7]

Şəkili müəzzin Turabinin "Vay günü" şeirində xalqının halını, onun acınacaqlı aqibətini ürək yanğısı ilə təsvir edir. *"Peşəsi dilənmək, xan haçan oldu"*- deyə, varlığını qəbul etmədiyi İsmayıl xanı hakimiyyətə gətirən çar Rusiyasına qarşı "ata gücü çatmayan, fili behləyən" ifadəsi ilə öfkəsini dilə gətirirdi. Şairə görə, "Sirkəni şəraba, gədəni xana, haqsızı haqlıya, pisi yaxşıya" çevirən , xalqını dar gündə satan, "donuz tərəfindən bəslənmiş bir şələ saqqallı" öz hirsi və nəfsi ucbatından dinin, ədalətin, vicdanın sonunu gətirir:

*Yıxdı başbiləni, tökdü qalaya*
*Düşdük müsibətə, yaman bəlaya,*
*Baxmadılar ata, ana, balaya*
*Vay günüdür, müsəlmana vay günü!*[8]

Ümumiyyətlə, Ə.Dilbazov, M.Arif, H.Gəncəli, Şikəstəxatir və başqalarının poeziyasında bəzən güclü, bəzən zəif şəkildə də olsa, istiqlal mücadiləsinin izlərini görmək mümkündür. Bu şeirlər sistemli yazılmasa belə XIX əsrin milli mübarizəsinin başlanğıc

[6] Köçərli, F. Azərbaycan ədəbiyyatı: [2 cilddə] / F.Köçərli. –Bakı: Avrasiya press, –c. 2. – 2005. – s. 235.
[7] El şairləri:[2 cilddə] / tərt.ed. S.Mümtaz. – Bakı: Nurlan, – c. 1. – 2005. – s. 51.
[8] El şairləri:[2 cilddə] / tərt.ed. S.Mümtaz. – Bakı: Nurlan, – c. 1. – 2005. – s.40.

rolunu oynaması danılmazdır.

Bu fəslin II paraqrafı **"XX əsrin əvvəllərində poeziyada azadlıq və hürriyyət konseptinin bədii inikası"** adlanır. Həyatın müxtəlif sahələrində baş verən irəliləyişlər (məktəb, maarif, mətbuat, ədəbiyyat, söz azadlığı və s.) müsbət nəticələr verir, yerli xalqların arasından da aydın şəxsiyyətlərin formalaşmasına şərait yaradırdı. Ə.Hüseynzadə "Qırmızı qaranlıqlar içində yaşıl işıqlar" məqaləsində *"Zəmanəmiz bir inqilab zamanıdır. Bəşəriyyət iləriyə doğru bir addım atmaq istiyor"* [9], - deyə xalqı buna hazırlayırdı. Onun bu müddətdə yazdığı şeirləri, məqalələri xalqın milli düşüncəsini bəlirləmə yolunda bir işıq tutdu, digər şairlərin də əqidəsində türkçülük mərhələsi başladı.

Milli mücadilə ədəbiyyatında özünəməxsus yeri olan M.Hadi ictimai-siyasi proseslərdən təsirlənərək milli, mədəni dəyişikliyi, oyanışı təbliğ edən şeirlər yazırdı. "Füyuzat", "Bürhani-tərəqqi", "Tazə həyat", "İttifaq", "Tərəqqi", "Səda" kimi milli ruhlu dərgi və qəzetlərdə şeirlərini dərc etdirən şair daha çox din, etiqad, dil, mədəniyyət kimi mövzulara toxunurdu. Cümhuriyyət dövründə "Əsgərlərimizə, könüllülərimizə", "Məfkureyi-aliyəmiz", "Azərbaycan hökuməti novzadinə", "Zəfəri nəhayiyə doğru", "Şühədayi-hürriyyətimizin əhvalinə-ithaf" kimi şeirlərində əldə edilən milli azadlığın qorunub saxlanması uğrunda millətini mübarizəyə səsləyir. "Əsgərlərimizə, könüllülərimizə" şeirində döyüş ahəngi, cəngavərlik ruhu, marş ritmi duyulur, mübarizə əzmi hiss edilir, vətən övladlarına üz tutur, onları vətənpərvər olmağa, torpağı, milləti, dövləti qorumağa çağırır.

Digər bir istiqlal şairi, türkçü və turançı ideyaları ilə köklənmiş Abdulla Şaiqin şeirlərində vətəndaş şairin qəlbinin səsi duyulur. Bu əsərlərdə azad, müstəqil dövlətə, cümhuriyyətə sevgi yaşayır. Şairin "Yeni ay doğarkən" şeirinin məzmununda Türk anası öz oğlundan türkün doğan hilalı-işıq halisi ilə bədrlənmiş ayı göstərərək ondan nəsə umduğunu bildirir. O diqqəti ayın ətrafındakı yeddi ulduza çəkməklə, birləşməsini xəyal etdiyi Turan dövlətlərinə eyham edir.

---

[9] Hüseynzadə, Ə. Seçilmiş əsərləri: [2 cilddə] / Ə. Hüseynzadə, tərt. ed., O.Bayramlı, Ə.Turan. – Bakı: Şərq- Qərb, – c.1. – 2007. –s. 208.

Şeirin qəhrəmanı Yavuza görə həmin ulduzlar ayın ətrafında necə parıltılı, məğrur görünürsə, türk dövlətləri də birləşdiyi hilalın ətrafında bu qədər yenilməz və güclü ola bilərlər:

*Annacığım, bən günəşi aydan, yeddi ülkərdən,*
*Çox sevirəm, Bilməm şu ay məni baxarkən,*
*Neçin əski diləklərim dalğalanır gözümdə*[10]

Abdulla Şaiqin şeirlərində simvolların varlığı özünü mütəmadi şəkildə "Qızıl alma" anlayışı ilə göstərir. Burada Ziya Göyalpda olduğu kimi, qadın kultu almanı mühafizə edir. Xatırladaq ki, türklərin utopik dünyasını simvolizə edən "Qızıl alma" irəliyə doğru atılmış addım, Turana doğru gedilən dünya, türk millətinin öz milli şəxsiyyətini qoruyub saxlamaqla Qərb mədəniyyətinə girməsi, öz ümmətini yüksəltməsi üçün vasitə, mənəvi birlikdir. Narahatlığını dilə gətirən şair "Arazdan Turana" şeirində düşmənin vətəninə girməyini qızıl alma bağına girən divlərə bənzədir.

*Annə, Turan elindən quruntulu bir xəbər,*
*Gətirmişiz su tasa, ürəyimizi həp dələr,*
*Girmiş sehrli divlər qızıl alma bağına,*
*Qara quzğun uşuşmuş solun və sağına*[11].

Sovet ədəbiyyatşünaslığında "mürtəce romantiklər" sırasına daxil edilən Ə.Cənnətinin lirikasının baş mövzusu hürriyyətin tərənnümü və azadlığa çağırış nəğmələri təşkil edir. İlk baxışda məhəbbət mövzulu əsər təsiri bağışlayan şeirlər sətiraltı şəkildə istiqlal və azadlıq ideyalarının təbliği məqsədi güdür, "Vətənim" şeirində istiqlaliyyət anlayışının toxumunu səpirdi.

Əhməd Cavadın da yaradıcılığının ana xəttini də istiqlal mövzusu təşkil edir. Ə.Cavadın bu dövr şeirlərində xalq, millət, gələcək məfhumları önə çıxır. "Mən çiynənən bir ölkənin haqq

---

[10] Şaiq, A. Seçilmiş əsərlər: [ 2 cilddə] / A. Şaiq, ön söz: A.Bayramoğlu. – Bakı: Avrasiya press, –c. 2. – 2005.– s. 62.

[11] Şaiq, A. Seçilmiş əsərlər: [ 2 cilddə] / A. Şaiq, ön söz: A.Bayramoğlu. – Bakı: Avrasiya press, –c. 2. – 2005.–s. 60.

bağıran səsiyəm", - deyən, milli ədəbiyyat tarixində "istiqlal şairi", "Turan yolçusu" Ə.Cavad, hər şeydən əvvəl azadlığı və Vətənin şərəfini tərənnüm edirdi. Ə.Cavad "Şeirim"də özünü qərib Turan yolçusu adlandırır. Kimliyinin Kəbəsi kimi yücəltdiyi Turan olarsa, kölgəsində türkün əyilməyən başı, qüruru da biləyibükülməz dünyaya meydan oxuya bilər:

*Mən bir Turan yolçusuyam, əlimdə bir sönük məşəl,*
*Aman şeirim, hümmət eylə, aman, təbim, bir qanad çal!*
*Açın qəlbin qübarını, baxın nədir baş yazısı?*
*Əvvəl Allah göndərəndir, sonra Türkün bayatısı!*
*Turan öylə bir müqəddəs Kəbədir ki, hər bir daşı*
*Kölgəsində düşər yerə Türkün əyilməyən başı!*[12]

Eyni paraleli Ə.Müznibin "Azərbaycan" şeirində də görmək mümkündür. Romantik detallarla təqdim etdiyi Azərbaycanın Turana aid olduğunu bildirən şair üç boyalı bayrağı tərənnüm edir, onun başının üstündəki cəlladı "Kəbə"sinə saldığı mundar kölgəsinə geri çəkməyi üçün səsləyir:

*Məbudumuz üç boyalı bayrağı,*
*Kəbəmizdir, hər bir ovuc torpağı,*
*Sevməz bu yer hər xaini, alçağı,*
*Doğruların asarıdı, bu ölkə*[13]

C.Cabbarlının "Türk sağ ikən...", "Yaşasın Azərbaycan", "Sevdiyim", "Azərbaycan bayrağına", "Ölkəm" kimi şeirlər milli himn yaranması yolunda atılan əsaslı addımlardan hesab olunur. Cəfərin hürriyyətçiliyi və milliyyətçiliyi türk milliyyətçiliyi və hürriyyətçiliyidir. Yurdçuluq onun nəzərində türk millətinin geopolitik durumundan qaynaqlanır, Azərbaycan yurdçuluğu

[12] Axundzadə, Ə. C. Seçilmiş əsərləri / Ə. C. Axundzadə, ön söz: Y.Qarayev. – Bakı: Şərq-Qərb,– 2005. –s. 113.
[13] Müznib, Ə. Seçilmiş əsərləri / Ə. Müznib, tərt. et. İ.Ağayev. – Bakı: Şərq-Qərb, – 2006. – s. 18

Cəfərdə türk milliyyətçiliyi ilə eyniləşirdi[14]. C.Cabbarlı "Sevdiyim" və "Azərbaycan bayrağına" şeirlərində bayrağı tərənnüm edir, onu "yaşıl donlu, al yanaqlı, mavi gözlü sevdiyim", - deyə adlandırır.

Gənc şairlərin yaradıcılığında da istiqlal sevinci tərənnüm olunur, müstəqillik təbliğ edilir, alqışlanırdı. Əliyusif Rai, Umgülsüm, Davud Əsgər, Mürşüd, Əbdürrəhman Dai və başqalarının şeirlərində milli ruh, istiqlalçılıq tərənnüm olunurdu. Əli Yusif Şərqin yeni günlərinin Azərbaycanla başladığına əminliyini ifadə edirdi.

Beləliklə, Ə.Hüseynzadə, A.Səhhət, A.Şaiq, M.Hadi, Ə.Cavad, Ə.Müznib, Ə.Yusif, C.Cabbarlı, Ə.Cənnəti, Umgülsüm və başqalarının poeziyasının ana xəttini yadellilərə qarşı mübarizənin təşkil etdiyini görürük. Bu dövrün poeziyası bədiilikdən daha çox fikri, ideyanı, ictimailiyi ön plana keçirirdi. Böyük idealların təbliğinə həsr olunan əsərlər sənətkarlıq baxımından üstünlük əldə etməsə də, məzmun kamilliyi baxımından olduqca fərqlənirdi.

Bu fəslə aid əldə edilən əsas müddəalar elmi jurnallarda, konfrans materiallarında dərc edilmiş məqalə və məruzələrdə öz əksini tapmışdır.[15]

Tədqiqatın **"Gültəkin (Əmin Abid) poeziyası milli mücadilə kontekstində"** adlı II fəsli iki paraqrafdan ibarətdir. **"Gültəkinin mühiti və yaradıcılığı istiqlal müstəvisində"** adlı ilk paraqrafda Ə.Abidin mühiti və onu istiqlala gətirən amillər, ilk dövr poeziyası tədqiq olunur. Əmin Abidin böyük qardaşı Əliabbas Müznibin də onun həyat yoluna böyük təsiri olmuşdur. Ə.Müznib 1907-ci ildən ilk şeirlərini "Təzə həyat", "İttifaq", "Zənbur" kimi qəzet və jurnallarda nəşr etdirmişdir. Əmin Abidin milli ruhda böyüməsinin və yaradıcılığında bu istiqamətin aparıcı rol oynamasının başlıca

---

[14] Mehmetzade, M. E. Cəfər Cabbarlı: vefatının 3-cü yıl dönümü münasibetile // – Berlin: Kurtuluş məcmuesi, – 1938. № 39, – s.18.

[15] Əhmədova, Ü. XIX əsr Azərbaycan mühacirət poeziyasında milli oyanış // – Bakı: Filologiya və Sənətşünaslıq, – 2022. № 2, – s. 126-132; Əhmədova, Ü. XX əsr istiqlal poeziyasının istinad etdiyi qaynaqlar: XIX yüzilin şairlərinin yaradıcılığı kontekstində // – Naxçıvan: Axtarışlar, – 2022. № 4, – s. 18-23; Əhmədova, Ü. Əbdülxaliq Cənnətinin şeirləri istiqlal poeziyası kontekstində // – Bakı: Filologiya məsələləri, – 2022. № 15, – s. 369-377.

səbəblərindən biri də dövrün siyasi proseslərində yaxından iştirak edən və sonralar Azərbaycan Milli Şurasına rəhbərlik edən M.Ə.Rəsulzadə ilə bu ailənin yaxınlığı olmuşdur. Ayrı-ayrı xatirələrdə Ə.Müznibin gəncliyində M.Ə.Rəsulzadə ilə sıx dostluq etdiyi deyilir. Tədqiqatçı İslam Ağayev isə bir qədər də irəliyə gedərək onların qonşu olduğunu bildirərək yazır: *"Onlar əslində bir məhəllədə böyümüşdülər. Ə.Müznib 1913-cü ildə onun İrandan mühacirətdən qayıtmasından sonra çıxardığı "İqbal" qəzetində çalışmış, 1914-cü ildən isə özünün çıxartdığı "Dirilik" jurnalında M.Ə.Rəsulzadə ilə əsl əqidə dostu kimi fəaliyyət göstərmişdir"*[16]. Hətta Ə.Abidin "Əmin" sözünü M.Ə.Rəsulzadənin adından götürüldüyünü iddia edənlər də vardır. Məsələn, Ə.Abid 1938-ci ildə repressiya olunarkən əleyhinə ifadə verən uşaqlıq dostu Ə.Əliyevin ifadəsində deyilir: *"...Neçin o Əmin Abid oldu? Türklüyündən və "Müsavat" partiyasının lideri Məhəmməd Əmin Rəsulzadəyə sayğı ifadəsi olaraq Əmin ismini almışdır"*[17].

Abid Mütəllibzadə də hələ gənc ikən böyük qardaşı Ə.Müznibin mətbu orqanlarında kiçik yazılarla çıxış edirdi. "Dirilik" jurnalındakı silsilə yazılarında "Məktəb"dən başlayan maarifçilik təfəkkürünü ifadə edirdi. Tam olaraq "turançılığın", "türkçülüyün" və "birliyin" proqram şəkildə formalaşmadığı zamanda şair "xabi-qəflət" yuxusundan oyanmağın sirrini birlikdə, arzu etməkdə, pak niyyətdə görürdü:

*Könül, bəsdir daha, artıq oyan bir xabi-qəflətdən*
*Özünü sən də qurtar bunca zillətdən, zəlalətdən.*
*Bugün öylə bir dəmdir ki, hümmət eylə hümmətlə,*
*Özün Türk oğlu Türk, əlbət, xilas eylə əsarətdən.*[18]

Ə.Abidin yaradıcılığı 1917-ci ildən etibarən yeni bir

[16] Ağayev, İ. Əliabbas Müznib: həyatı, yaradıcılığı, əsərlərindən seçmələr / İ.Ağayev. – Bakı: Elm, – 2003. – s. 18.
[17] Abid, Ə. Şəxsi iş // Azərbaycan Milli Təhlükəsizlik Nazirliyinin arxivi, iş № 32796, vərəq – 4.
[18] Gültekin, Ə.A. Buzlu cehennem-Başqa şiirler / Ə.A. Gültekin, tərt. ed. Ə.Şamil. – Bakı: Günəş, – 1999. – s. 65.

mərhələyə qədəm qoyur. Biz onun lirikasında getdikcə yalnız Azərbaycan cəmiyyəti üçün deyil, bütün Türk dünyası üçün əhəmiyyət kəsb edən mövzuların işləndiyini görürük. "Bəsirət" qəzetində çap etdirdiyi "İntiqam", "Qılıncım və başım" (10 dekabr 1917), "Azərbaycan" qəzetində yayımlanan "Türkün dərdi" (11 avqust 1917-ci il) şeirlərində milliyətçilik və türkçülük sevdası hiss olunurdu. Yaradıcılığının birinci dovrünün son mərhələsinə aid olan şeirlərindən biri də "Azərbaycan" qəzetində 11 avqust 1917-ci ildə yayımlanan "Türkün dərdi" şeiridir. Şeirdə müəllifi türk dünyasının problemi, düşdüyü pərakəndəlik, çıxılmaz vəziyyət narahat edir. Misralarda türkün şanlı keçmişinə xatırlatma olduğu kimi, ümidli, işıqlı gələcəyinə də nikbin yanaşma var.

Əmin Abid Türkiyəyə təhsil dalınca Azərbaycanın öz istiqlalını qazandığı zaman getmişdir. Gənc şair "Abid Mütəllibzadə", "Alptəkin", "Mütəllib oğlu Alp" və s. imzalardan istifadə edir, şeirlərində daha çox xalqın, millətin qarşılaşdığı problemlərdən bəhs edirdi. Lakin Ə.Abid Türkiyədə Darülmüəllimliyi bitirib Azərbaycana döndüyündə artıq Azərbaycan XI Qızıl ordu tərəfindən yenidən işğal olunmuş, milli istiqlal süquta ugramışdı. Ə.Abid yenidən Türkiyəyə geri dönməyi düşünür və buna nail olur. Bu dəfə o, İstanbul Universitetində təhsilini davam etdirir və həm də "Azərbaycan türklərinin ədəbiyyatı tarixi" kitabını yazmağı qarşısına məqsəd qoyur. Türkiyədə olarkən M.Ə.Rəsulzadənin İstanbula gəlməsi ilə (1922) Azərbaycan mühacirləri bir yerə toplanır və işğala qarşı mübarizə qərarı verirlər. "Yeni Kafkasya" dərgisinin nəşri (1923) bu mübarizənin əsas faktorlarından olur. "Yeni Kafkasya"nın 3-cü sayında Gültəkinin "Kork" şeiri "K.T." imzası ilə çap olunur. Sonrakı şeirlərində şair bunu "Gültəkin"olaraq təsbit etdi. Özünün siyasi ruhu, milli düşüncəsi və mübarizə əzmi ilə şeirin müəllifi işğalçılara meydan oxuyur, istiqlalı belə asanlıqla əldən vermək fikrində olmadıqlarını "*Yaklaşma ey zalım kahreder seni, / Kalbimden yükselen figanımdan kork!"*[19] sözlərilə poetik şəkildə ifadə edirdi.

Gültəkin bir istiqlal şairi kimi istiqlalı əldə etməyin yolunu

[19] K.T. Kork // – İstanbul: Yeni Kafkasya, – 1923. №3, – s. 7.

mübarizədə görür və bu mübarizəsini şeirləri ilə yeni bir məcraya daşıyır. Şairin mübarizəsində siyasi, mənəvi və dini ruh bütünləşir. O, vətən yolunda vuruşmağı, zülmə etiraz etməyi cihad, onun yolunda ölməyi şəhadətə qovuşmaq olaraq qəbul edir. M.Ə.Rəsulzadə Gültəkinin bu şeirlərini bolşevik senzurasından azad olaraq mühacirətdə nəşr edilən Azərbaycan ədəbiyyatı hesab edirdi: "*Bu ədəbiyyatda Gültəkin adını daşıyan alovlu şairin yazıları xüsusi bir yer tutur. Gültəkinin şeirlərində biz həqiqi milli-inqilab mübarizəsinin nəşidlərini görürürük. Mübarizənin ədalətliliyinə və qələbə ilə nəticələnəcəyinə bağlanan ümid, Gültəkində adətən dini bir mahiyyət alır"*[20].

Gültəkinin istiqlalla bağlı ən yaxşı şeirlərindən biri "Azərbaycan istiqlalı"dır. Şeirin yazılma tarixi ona görə önəmlidir ki, şair hələ bu zaman istiqlalın özünü yaşayırdı, onun dadını çıxarırdı, lakin sonrakı şeirlərində istiqlalın itirilməsinin acısını yaşayırdı. Ə.Abid bu şeiri mənzumə adlandırır və başqa əsərlərindən fərqləndirir[21]. Doğrudan da, bu şeir həm yazılış tərzinə, həm də formasına görə fərqlənir. Başqa sözlə, bu şeiri istiqlala həsr edilmiş poema da adlandırmaq mümkündür. Üç hissəyə bölünən şeirdə türklüyün keçmişi, bugünü və gələcəyi təsvir olunur.

Gültəkinin istiqlal mübarizəsinə həsr etdiyi şeirlərin, demək olar, hamısı Azərbaycandan kənarda olduğu zamana təsadüf edir. Bu, həm də o demək idi ki, istiqlal əldən verildikdən sonra onun dəyəri bilinmiş və onu yenidən geri qaytarmaq uğrunda siyasi, mənəvi, ədəbi mübarizə başladılmışdır. Şairin bu şeirlərinin əksəriyyəti "Yeni Kafkasya" səhifələrində işıq üzü görmüş və bundan sonra mühacirlərin dillər əzbərinə çevrilmişdi. Azərbaycanın boşeviklər tərəfindən işğal edildiyi, milli qüvvələrin həbsə və məhvə məhkum edildiyi, müstəqillik anlayışının günah, müsəlmanlığın cinayət sayıldığı bir zamanda "Qollarında qüvvət, kafasında bilgi" olan azərbaycanlı gənclərə

[20]Rəsulzadə, M. Ə. Çağdaş Azərbaycan ədəbiyyatı / M. Ə. Rəsulzadə – Bakı: Gənclik, – 1991. – s. 81.

[21] Abid, Ə. Azəri ədəbiyyatı tarixi / Ə. Abid, tərt. ed. B. Əhmədov, Ə.Hüseynoğlu. – Bakı: Elm və Təhsil, – 2020. –s. 296.

səslənən Gültəkin, onlardan "özünə gəlməsini", "tarixinə, dininə, dilinə, varlığına" sahib çıxmasını istəyirdi. Türk dünyasından qoparmağa çalışdığı bir millətin mənəvi dəyərlərini məhv etməklə əsas işğalın baş tutmayacağına bütün varlığı ilə inanır və oxucunu da buna inandırırdı.

Beləliklə, istiqlal mövzusunun Ə.Abid yaradıcılığının ilk dövrlərindən mühüm yer tutduğunu və sonralar "Gültəkin" imzalı şeirlərində bir sistem halını aldığını görürük. Onun bədii nümunələri yeni bir poetik dalğanın başlanğıcını qoydu və gənc türkçülərin ondan təsirlənməsi ilə nəticələndi. Əlbəttə, bu şeirlərin hamısı sənətkarlıq və poetika baxımından yüksək səviyyədə olmasa da, ideya cəhətdən təsiredici olduğundan mühacirlər arasında geniş yayılır və digər şairlərin yaradıcılığına da təsir göstərirdi.

Bu fəslin **"Gültəkin poeziyasında türklük və turançılığın poetik dərki"** adlı II paraqrafında Gültəkin şeirlərində türklük və turançılıq problemi araşdırılır. İstiqlal dövrü poeziyasında əksər şeirlərin başlıca idealına çevrilən türkçülük, türkün şanlı keçmişinin poetik tərənnümü, Azərbaycanın, Turanın ayrılmaz tərkib hissəsi olması kimi həqiqətlər Gültəkin poeziyasının da aparıcı xəttini təşkil edir. Türkçülüyü tərənnüm etmək, "türkün hər şeyi gözəldir, hamıdan üstün və cəsurdur" düşüncəsini təbliğ etmək Gültəkinin türkçü şeirlərinin əsas məğzini təşkil edir. "Azəri gəncliyinə" şeirində üzünü tutduğu gənclikdən də bunu tələb edirdi:

*Nə istəsən yalnız özündən istə,*
*Kəndi səsin olsun, ruhuna bəstə,*
*Basdıqca torpağa yer inildəsin,*
*Atdığın addımlar, belə sən desin*[22]

"Bayrağım və istiqlalım" şeirində şair işğalçıya sanki meydan oxuyur, əsrlər altından yüksələn bayrağın bundan sonra

[22] İstiqlal uğrunda: şeirlər məcmuəsi / tərt. ed. H.Rüstəm. – Bakı: Qələmnəşr, – 2015. – s.80.

da dalğalanacağına əminliyini ifadə edir. Şair düşmənin gözünün içinə baxa-baxa müstəqillikdən və bayraqdan vaz keçməyəcəyini “Bayrağım öləməz, ölərsə əgər, torpağın altına keçər ölkələr”, -deyə onu xəbərdar edirdi. Şeirdə yer alan Turan ifadəsinə İran dastan ənənələrində, Firdovsinin “Şahnamə”sində rast gəlinir, ifadənin anlamı türklərin qədim yaşayış adı kimi işlənir. Turançılıq, pantürkizm fikirləri Yusif Akçura, Əhməd Ağaoğlu, Əli bəy Hüseynzadə kimi Rusiya əsarətində olan Azərbaycandan gələn köçmənlər tərəfindən Türkiyədəki türklər arasında da yayıldığını göstərir. İctimai-siyasi proseslərdə türkçülüyün önə keçməsi poeziyaya da təsirsiz qalmır. Gültəkinin bu dövrdə yazdığı şeirlərin əsas mövzularından biri də türk mövzusu olur.

“Türkün dərdi” şeirində Şərq və Qərbi bu aspektdən belə müqayisə edir:

*Ey Tanrının əziz qulu, ey Türk oğlu!*
*Ey Şərq simasının parlaq ulduzu!*
*Qərb istəməz türkün gözəl simasına,*
*Qalibiyyət təbəssümü hiss olunsun.*[23]

Şərq və Qərbi qarşı-qarşıya qoyan Gültəkin onun dərdinin saymaqla tükənməyən, tarixi mübarizələri ilə itirilməyə məhkum edilsə də, əzmindən heç nə itirməyən, hər sətri igid qanı ilə yazılan kitab, Şərqin sönməz ulduzu hesab edir. Gültəkinin “Bir gün gələr ki...” şeirində əsas niyyət milləti özünə tanıtmaq, tarixi türklərin yüksəlişinə, qüvvətlənməsinə əsas səbəblərini ifadə etməkdən ibarət idi. Türkçülüyün azərbaycanlı türkçülər üçün əsas ideoloqlarından biri olan Ə.Hüseynzadə kimi Gültəkin də türkçülüyü milli tarixə, milli mədəniyyətin dərinliklərinə enməkdə görürdü. Yəni türk tarixini, türk böyüklərini, qərəzli mənbələrdən deyil, əsl türk təfəkkürünün məhsulu olan əsərlərdən öyrənməli, elə də tanıtdırmalıyıq. Gültəkinin “Azərbaycan gəncliyinə”şeirində gənc nəsildən üzünü milli kimliyinə tutmasını təmənna edir:

---

[23] Abid, Ə. Türkün dərdi // Azərbaycan. –1917, 11 avqust. – s.2.

*Ey əziz yurdumun, igid gəncliyi,*
*Dinlə bugünün çox dərin səsini*
*Düşün yaşamağın fəlsəfəsini,*
*Bu həyatın oğlu,kalbinə qoymadan bir yabancı iz,*
*Barmağını uzat üfüqündə çiz*
*Getdiyin yolu...*[24]

Gültəkin Turanın tarixindən bəhs edir və türkçülük nəzəriyyəçisi Z.Göyalp kimi, Turanı bütün türklərin keçmişdə, bəlkə də, gələcəkdə gerçək olan vətəni kimi qəbul edir. Bu, həm də onun üçün Türküstan deməkdir. Bunun üçün də onun poetik qəhrəmanları keçmişini heç zaman unutmadığı kimi, Turanı gələcək hədəf kimi müəyyənləşdirir, onun uğrunda mübarizə aparır və gələcəyə inamını ifadə edir. Bu mənada onun şeirləri türkçülüyün və turançılığın poetik dərketməsidir.

Gültəkinin poeziyasında "türkləşmək, islamlaşmaq, müasirləşmək" üçlü formulundan ilk ikisi, həmçinin turançılıq daha ön planda yer alır. Xüsusilə, "Azərbaycan gəncliyinə", "Bir gün Qərbin göylərində", "Türkün səmasından qanlar damlıyor", "Arxasız Vətənə düşmən yaraşır", "Qorx", "Bir Turan yolçusu deyir ki..", "Türkün dərdi", "Turan elləri" və s. kimi şeirlərində türkün dərdini ifadə edən, onun şanlı keçmişinə əsaslanan, bunun üçün də Azərbaycanın əsas güc və azadlığa qovuşması gərəkliyi ifadə edilir.

Beləliklə, Əmin Abidin "Gültəkin" imzası ilə mühacirətdə yazdığı şeirlərində məzmun və formanın dəyişdiyini görürük. Onun şeirlərinin əsas məzmununda hiss olunan pafos Azərbaycan istiqlalı və bunun yolunda bir an belə tərəddüd etməyən gəncliyin mübarizəsi durur. Rus işğalına məruz qalan və mühacir həyatı yaşayan, azadlıq uğrunda mübarizə aparan hər istiqlal fədaisi kimi Azərbaycan türkünə azad gələcəkdə Turana qovuşmağı, iman, haqq sevgisinin bu yolda öz gəncliyinə həyan olacağına inam ifadə edir.

---

[24] Gültekin, Ə.A. Buzlu cehennem-Başqa şiirler / Ə.A.Gültekin, tərt. ed. Ə.Şamil. – Bakı: Günəş, – 1999. – s. 38.

Bu fəslə aid müddəalar elmi jurnallarda və konfrans materiallarında dərc edilmiş məqalələrdə öz əksini tapmışdır.[25]

Tədqiqatın **“Gültəkin poeziyasında vətənpərvərlik və vətəndaşlıq motivləri**” adlı III fəslinin I paraqrafı **“Gültəkin poeziyasında vətən, yurd, ana obrazları”** adlanır. Qeyd olunur ki, A.Şaiq, Ə.Cavad, C.Cabbarlı, Davud, Ə.Bağırlı, M.Gəncəli və b. şeirlərində Vətənin, Ananın, Yurdun yağılardan qorunması üçün çağırışlar edilirdi. Bütün bunlar xalqda istiqlala, torpağa, anaya, vətənə sahiblik hissini formalaşdırırdı. A.Bayramoğlunun yazdığı kimi: *“Genetik yaddaşın oyatdığı bu ülvi duyğular türk dünyasının işıqlı sabahına nur çiləyən milli-mənəvi potensiyamızın istinad nöqtəsi, enerji, güc mənbəyi kimi diqqəti cəlb edir”*[26].

Cümhuriyyətin süqutundan sonra Azərbaycanda milli ruhlu şeirlər dərc olunmasa da mühacirətdə yaranan ədəbiyyatda bütün diqqətlər işğala qarşı mübarizəyə, istiqlal duyğularına yönəlmişdi. Gültəkinin “Sevgili Bakıya” şeirində işğal altında qalan vətənin simvolu “övladları kimi yetim qalan”, “qəlbinə matəm bağlayan”, “düşmən qucağında ağlayan” Bakıdır-Vətəndir:

*Dünyaya gəldim mən-torpağım oldun,*
*Altaylardan endim-durağım oldun,*
*Yaşıl çəməninlə, mavi göyünlə,*
*Qırmızı gönünlə bayrağım oldun,*

---

[25] Ahmedova, U. Satirical poem creation by Amin Abid // – Ukrain: Humanities Science Current Issues: Interuniversity collection of Drohobych Ivan Franko State Pedagogical University Young Scientists Research Papers, – 2022. № 15, – p. 369-377.; Əhmədova, Ü. Türkçü şair Gültəkinin yaradıcılığında vəzn və mövzü vəhdəti // Qlobalaşma dövründə Türk dünyası: Çağırışlar, perspektivlər, Beynəlxalq tələbə elmi konfransının materialları, – Bakı : Xəzər Universiteti nəşriyyatı, – 26-27 may, – 2022, – s. 412-418.; Əhmədova, Ü. Əmin Abid və “Məktəb” jurnalı // The XXIX İnternational Scientific Symposium: “Turks and the world : problems of mutual relations” dedicated to the 220 th anniversary of Mirza Kazembek ,– Kars : Kafkars Eğitim, – 30 augustos, – 2022 , – p. 34- 38.

[26] Bayramoğlu A. Azərbaycan Demokratik Respublikası dövründə ədəbiyyat / A.Bayramoğlu. – Bakı: Elm, – 2003. – s. 21.

*Dağların mehrabım, daşın minbərim,*
*Mən sənin adına səcdə edərim.*[27]

Tanrı dağları türklərin “Yaradılış”, “Alp-ər Tonqa”, “Şu”, “Oğuz Kağan”, “Bozqurd”, “Törəyiş”, “Ərgənəkon”, “Köç” kimi sayısız dastanlarda əsas məkan anlayışını ifadə etmişdir. Bu səbəbdəndir ki, Gültəkin “Torpaq yaşayanındır”, “Torpağa sahib olmaq haqqa qovuşmaqdır” fikirləri ilə türk gənclərini öz yurdlarından, tarixindən uzaqlaşmamağa çağırırdı. Şair “Qürbətdə bayram” şeirində bu bayram günündə anasını xatırlayır və vətənə geri qayıtmaq yollarını arayır. Məhz bu şeirində yanğıyla müraciət etdiyi “ana” əslində Azərbaycandır, azadlığı əlindən alınmış Vətəndir. “Sənsiz bu neçənci bayramım, annə”, – deyə xatırladığı 23 ay ömür sürən, övladlarının onu azadlığa çıxaracağı günə ümid bağlayan Azərbaycan Cümhuriyyətidir.

Gültəkinin poeziyasında istiqlalçılıq müxtəlif formalarda təzahür etmişdir. Türkiyə yaradıcılığı başlı-başına mübarizəyə çağırışdır. Şairin şeirlərinin əksəriyyəti monoloq təsiri bağışlayır, əsasən, bu misralarda nikbin ruh, vətənpərvərlik aparıcıdır. Gültəkinin yaradıcılığında şəxsi kədərdən, narazılıqdan daha çox ictimai kədər, o dövrün Azərbaycanının siyasi vəziyyəti, Azərbaycan sevgisi ilə alışıb yanan-ürəklərin üsyanı əsas yer tutur. “Buzlu cəhənnəm”, “Sevgili, Bakıya”, “Annəmə” şeirlərində övlad olaraq sevgisinin tükənmədiyini dönə-dönə vurğulayır. Gültəkin vətəndən uzaqda qalmaq məcburiyyətindən doğan göz yaşlarını “Ağla, gözəl gəlin”, “Canavar”, “Bəsirələr bəldəsi” şeirlərində də özünü göstərir. “Ağla, gözəl gəlin” vətənində özünü qərib hiss edən gəlin obrazı sanki Azərbaycanın obrazıdır:

*Gəlin, nazlı gəlin, əz, üz özünü*
*Vətənində qərib olan qəmin yaz*
*Azərbaycanın o acı dərdini,*
*Yarının qəbrinə hıçqırıqla yaz,*

---

[27] Gültekin, E.A. Buzlu cehennem (şiirler, mükaleler) / E.A.Gültekin. – Bakü: Azerbaycan Kültür Evi yayınları, – 2018. – s.25.

*Getmədən əlinin xınası gəlin,*
*Ellə bərabət tut bu yası gəlin!..*[28]

Siyasi şəraitdən asılı olaraq Azərbaycyyyn Cumhuriyyətinin süqutu, hakimiyyətin bolşeviklərin əli ilə Moskvaya təhvil verilməsi, hər bir müstəqillik arzusu ilə alışıb-yanan həmvətənimiz kimi Gültəkini də üsyana sürükləyir. İstiqlal şeirləri təkcə istiqlalçı məzmunla məhdudlaşmır, burada həm də ictimai motivli son dərəcə lirik şeirlər, marşlar vardır. Lakin nədən yazır-yazsın, vətən, istiqlal bu şeirləri birləşdirən cəhətə çevrilir.  Bu aspektdən yanaşdıqda görə bilirik ki, anaya yazılan məktub sevgilidən, yəni Azərbaycanı şikayət təsiri də bağışlayır.

Ümumiyyətlə, Gültəkinin şeirləri bu gün də poetik xüsusiyyətlərini qoruyub saxlayır, dövrün mühacirlərinin daxili dünyasını anlamağın mahiyyətini, poetik anatomiyasını romantikcəsinə əks etdirir. Bu şeirlər poetik ifadə zənginliyi, təsir gücü, ritm və intonasiya cəhətdən də milli poeziyanı zənginləşdirir.

Fəslin **"Gültəkin poeziyasında rus işğalına qarşı mübarizə"** adlı II paraqrafında işğala qarşı mübarizə motivləri tədqiq edilir. Gültəkin poeziyasında işğala qarşı dirəniş və istiqlal düşüncəsi başlıca yer tutur. Bu mövzuda qələmə aldığı "Canavar" , "Buzlu cəhənnəm", "Çeka", "Bir turan yolçusu şairinə..", "Azəri kommunistinə", "Vətənim və eşqim", "Sükuti-pürhəyəcan", "Qürbətdə bayram", "Moskva", "Qızıl rus şairinə" və s. kimi şeirlərində işğala qarşı mübarizə və işğalın fəsadlarını, mövcud mənzərələrini görmək mümkündür. "Ölüm saçan alovdan, insan qəlbi yıxan qüvvədən" güc alır, torpağını sıxsan "içdiyi qızıl qanı" qusar, Moskva!" - deyən şair başverən terrorun fərqində olsa belə, qətliama göz yuman şəhəri, idarə mərkəzini günah yuvası adlandırır:

*O bir ölüm saçan alovdan diyar,*
*Yaxınlaşma, ey insan, qəlbini yakar,*

---

[28] Gültekin, E.A. Buzlu cehennem (şiirler, mükaleler) / E.A.Gültekin. – Bakü: Azerbaycan Kültür Evi yayınları, – 2018. – s. 25.

*İçdiyi qan bəli, o qədər çox ki,*
*Torpağını sıxsan, qızıl qan axar*[29]

Təqiblərə məruz qalan və ələ keçirilən, məşəqqətli sorğulara şahid olan Gültəkin "Çeka" şeirində ortamın ümumi mənzərəsini poetik şəkildə ifadə edirdi. Maksim Qorkiyə ithaf etdiyi şeirdə Şərqin dərdini anladırdı. Bununla kifayətlənməyən Gültəkin işğalçı qüvvənin məsul olduğu aqibəti bilinməyən yüzlərlə insanı, mühacir həyatı yaşamaq məcburiyyətində qalan saysız mücahidlərin tərki-diyar olmasını xatırlayırdı. "Canavar" şeirində rus istila qüvvələrinin qaniçənliyi və qəddarlığı vəhşi canavarın simasında təsvir edilirdi. Alnında həsrət və hüzn yazılan "nənə"nin əlində paslanmış, dəmir maşası ilə içində qərq olduğu kədərinə qapılan qadının övladını qorxudan xilas etmək üçün yatırmağı təsvir edilir. Meşələrin "dar", yaşıl üfüqləri qaraltmağı dilədiyi "cənnət"i, uladıqca coşan, coşduqca sümüyə, qana hərislik edən canavarın qarşısında əliyalın qadınlar, uşaqlar təsvir edilir. Küləyin belə ölüm səsini anımsadan sızıltısını xatırladan Gültəkin işğalçı ordunu ifşa etməkdən çəkinmir:

*Dağlardan endi, o, kəskin dişiylə,*
*Vəhşəti titrətdi bu gəlişiylə,*
*Qanlı tilsimini yaydı aləmə,*
*Kükrəyir, səadət taparam deyə,*
*Axıtdığı qandır, dişinin qanı,*
*İçindən akıyor mundar salyası,*
*Bürümüş beynini bir "qızıl" duman.*
*Gözündə görünür daim qızıl qan*[30].

Gültəkinin "Buzlu cəhənnəm" kitabında yer alan şeirləri əsasən proqram xarakterlidir və milli azadlıq ideyasının yayılmasına xidmət edir. Kitab "Buzlu cəhənnəm" şeiri ilə şairin

---

[29] Gültekin, Ə.A. Buzlu cehennem- Başqa şiirler / Ə.A.Gültekin, tərt. ed. Ə.Şamil. – Bakı: Günəş, – 1999. –s. 42.
[30] Gültekin, Ə. A. Buzlu cehennem - Başqa şiirler / Ə.A.Gültekin, tərt. ed. Ə.Şamil. – Bakı: Günəş, – 1999. – s. 52.

*“Ruslar tərəfindən Sibiryaya nəfy (sürgün) edilən Azəri qardaşlarıma”* epiqrafı ilə açılır. Şairin azadlıq, müstəqillik yolundan dönməyən və bu yolda apardığı mübarizə nəticəsində Sibirə sürgün edilən azadlıq aşiqlərinə şeir həsr etməsi də təsadüfi deyil. “Buzlu cəhənnəm” şeiri Sibirə müraciətlə başlayır.

Gültəkin “Əsrlərin bəldəsi” şeirində azadlıq eşqinin varlığına ötən “bayquş”ları, öz səyyar sevgisi ilə məzarlıq diyarına qovmağa çalışır. Harada olmağından asılı olmayaraq içindəki “eşq”in onu bütün təqib, təzyiqlərdən qoruyacağına inanır. Nəinki özünü ideologiyanın ətrafına topladığı hərkəsin əzminin qarşılıqsız qalmayacağına ümid edir. Şairə görə, onlara güc verən qəlblərindəki azadlıq və istiqlal eşqidir. Bu eşq ilə onlar hər cür zülmə, şaxtaya, soyuğa dözürlər. Onlar bu eşqi özlərinə rəhbər tutur və üfüqdə görünən işığa doğru yol gedirlər. Şairin lirik qəhrəmanı inanır ki, onlar doğru yoldadır və bu yol çox yaxındır.

Gültəkin şeirlərinin əsas məqsədi yeni nəslin istibadada, zülm və haqsızlıqlara qarşı gözünü açmaqdan ibarət idi. Məhz buna görə də, mövzu nə qədər bədbin olsa belə, sonunda mütləq azadlığa inam özünü göstərirdi. Şair inanır ki, gün gələcək xalq, millət yenidən öz istiqbalına qovuşacaq, o zaman xəyanətə və zülmə yuva olan bu imperiya onun bayrağına baş əyəcək:

*O qandan, gəmikdən yoğrulan yerin,*
*Əlbəttə, olacaq sənin məqbərin,*
*Gün gələr hilala baş əyir yenə,*
*Göy bayrağı öpən məğrur burcların,*
*Sen ey xəyanətə, zülmə bir yuva,*
*Ey qızıl Moskva, vəhşi Moskva!*[31]

Beləliklə, Gültəkinin şeirlərində yüksək səslə və pafosla işğala qarşı vətəndaşlıq mübarizəsinin bədii inikasını aydın şəkildə görmək olur. İşğala qarşı yazılan hər bir şeirdə şairin

---

[31] İstiqlal uğrunda: şeirlər məcmuəsi / tərt. ed. H.Rüstəm. – Bakı: Qələmnəşr, – 2015. – s.85.

davası şəxsi dava deyil, səsi boğulan, boyunduruğa vadar edilən, əzilmiş, imanı, kimliyi tapdaq altında qalmış bir millətin davasıdır.

Bu fəslə aid əldə edilən əsas müddəalar elmi jurnallarda və konfrans materiallarında öz əksini tapmışdır.[32]

Tədqiqatın **"Nəticə"** hissəsində əldə edilmiş qənaətləri bu şəkildə ümumiləşdirmək olar:

- Sistemli şəkildə olmasa da, XIX əsr ədəbiyyatında ayrı-ayrı şairlər işğal və zülm faktı ilə barışmayaraq öz şeirlərində bəzən zəif, bəzən güclü, bəzən açıq, bəzən gizli şəkildə, simvollarla buna öz etirazlarını bildirmişlər;
- XX əsrin əvvəlləri və Cümhuriyyət dövründə milli istiqlal düşüncəsi publisistika ilə yanaşı, Ə.Hüseynzadə, A.Şaiq, M.Hadi, A.Səhhət, Ə.Cənnəti, A.Şaiq, Ə.Cavad, Ə.Müznib, Əli Yusif, C.Cabbarlı, Ə.Cənnəti, Umgülsüm kimi şairlərin yaradıcılığında da əks olunmuşdur;
- Gültəkinin (Əmin Abid) mühacirətdə yazdığı şeirlər onu bir istiqlal şairi kimi tanıtmış, siyasi liderlər onun poeziyasına müraciət etmiş və xalqın istiqlal duyğusunu, mübarizə və mücadilə əzmini yaşatmağa çalışmışlar;
- Gültəkinin şeirlərinin ana xəttini Azərbaycan istiqlalı və onun yolunda bir an belə tərəddüd etməyən gəncliyin mübarizəsi təşkil edir;
- Gültəkinin poeziyasında ana, vətən, yurd, sevgili anlayışı bütünləşmiş, bir-birindən ayrılmaz hala gəlmişdir.;
- Gültəkinin şeirlərində işğala qarşı mübarizə və işğalın fəsadları, mövcud mənzərələri poetik şəkildə təsvir olunur.

---

[32] Əhmədova, Ü. Əmin Abid Gültəkin poeziyasında kommunist ideologiyası əleyhinə etirazın bədii inikası // – Bakı: Poetica.izm, – 2022. № 1, – s. 130- 137; Əhmədova, Ü. Gültəkin poeziyasında Ana və Vətən obrazları // The XXXIII İnternational Scientific Symposium : "Dialogue of sciences and cultures in the modern world" , – Bişkek: Kafkars Eğitim, – 24 aralık, – 2022, – s. 35- 38.

**Tədqiqat işinin əsas müddəaları müəllifin aşağıdakı məqalələrində əks olunmuşdur:**

1. Əmin Abid Gültəkin poeziyasında kommunist ideologiyası əleyhinə etirazın bədii inikası // – Bakı: Poetica.izm, – 2022. № 1, – s. 130- 137.
2. XIX əsr Azərbaycan mühacirət poeziyasında milli oyanış //–Bakı: Filologiya və Sənətşünaslıq, – 2022. № 2, – s. 126-132.
3. Umgülsüm Sadıqzadə və Əmin Abid Gültəkin yaradıcılığında milli-istiqlal izləri // – Bakı: Azərbaycan ədəbiyyatşünaslığı,
– 2022. № 2, –s. 89-96.
4. XX əsr istiqlal poeziyasının istinad etdiyi qaynaqlar: XIX yüzilin şairlərinin yaradıcılığı kontekstində // – Naxçıvan: Axtarışlar, – 2022. № 4, – s. 18-23.
5. Əbdülxaliq Cənnətinin şeirləri istiqlal poeziyası kontekstində // – Bakı: Filologiya məsələləri, – 2022. № 15, – s. 369-377.
6. Satirical poem creation by Amin Abid // – Ukrain: Humanities Science Current Issues: Interuniversity collection of Drohobych Ivan Franko State Pedagogical University Young Scientists Research Papers, – 2022. № 15, – p. 369-377.
7. Türkçü şair Gültəkinin yaradıcılığında vəzn və mövzü vəhdəti // Qlobalaşma dövründə Türk dünyası: Çağırışlar, perspektivlər, Beynəlxalq tələbə elmi konfransının materialları , – Bakı : Xəzər Universiteti Nəşriyyatı, – 26-27 may, – 2022, – s. 412-418.
8. Əmin Abid və "Məktəb" jurnalı // The XXIX İnternational Scientific Symposium: "Turks and the world: problems of mutual relations" Dedicated to the 220 th anniversary of Mirza Kazembek – Kars: Kafkars Eğitim, – 30 augustos, – 2022, – s. 34- 38.
9. Gültəkin poeziyasında Ana və Vətən obrazları // The XXXIII İnternational Scientific Symposium: "Dialogue of

sciences and cultures in the modern world", – Bişkek: Kafkars Eğitim, – 24 aralık, – 2022 , – s. 35- 38.

10. XX əsrin əvvəllərində poeziyada azadlıq, hürriyyət və milli istiqlal düşüncəsinin inikası // – Bakı: Dil və Ədəbiyyat, - 2023. № 2 , – s. 200-203.
11. Gültəkinin mühiti və yaradıcılığı milli istiqlal kontekstində // – Bakı: Humanitar elmlərin öyrənilməsi və aktual problemləri, – 2023. № 2 , –s. 152-159.
12. Gültəkin (Əmin Abid) poeziyasında türkçülüyün poetik dərki // – Gəncə: GDU-Elmi xəbərlər, – 2023. № 4, – s. 79-85.



28

Dissertasiyanın müdafiəsi 7 iyun 2024-cü il tarixində saat 14:00-da Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi nəzdində fəaliyyət göstərən ED 1.31 – Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001. Bakı şəh., İstiqlaliyyət küçəsi 53.
Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyat Muzeyi.

Dissertasiya ilə Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 3 may 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 24.04.2024

Kağızın formatı: A5

Həcm: 36257

Tiraj: 100